

Fuad Biləsuvarlı

## BU SƏHƏR

Lənət ayrılığa, hicrana, qəmə!
Sənsizlik dönübdü bir cəhənnəmə.
Yadıma düşmüsən bu səhər yenə...
Mən səni de hardan tapım bu səhər?

Günəşdən şəfəqli camalına bax,
Məni Məcnun edən amalına bax.
İlahi, sən bunun xəyalına bax!
Xəyaldan nə sayaq qopum bu səhər?

Bilmədim hayandan əsdi bu külək...
Həqiqət dinləmək istəmir ürək.
Nakam arzuları bir-bir, çiçəktək
İzsiz yollarına səpim bu səhər...

Gözlərin yanardı - ocağın kimi,
Rahat yer qaldımı - qucağın kimi.
Həsrətin də şirin dodağın kimi,
Öpüm həsrətindən, öpüm bu səhər!

## MƏNSİZ

Hardasa, bir gözəl məndən nigaran
Yaşayır ömrünü, yaşayır mənsiz.
Fikri qarmaqarış, ümidi viran,
Daşıyır bir həsrət, daşıyır mənsiz.

Hicranı yolundan daşlasa da o,
Yeni bir sevdaya başlasa da o,
Başqa bir ürəkdə qışlasa da o
Danışır şəklimlə, danışır mənsiz.

Qızının ətridir - ən əziz qoxu,
Neyləsin ki, odur tək varı-yoxu.
Xeyirə yozulmur gördüyü yuxu,
Qarışır yuxusu, qarışır mənsiz.

Fikirlər edibdi halını xarab,
Yaralı qəlbində qalmayıbdı tab.
Yükü qucaq-qucaq, dərdi bir kitab,
Barışır dərdlərlə, barışır mənsiz.

Gözünə qor dolur, qaranlıq çökür,
Qisməti yoluna çınqıllar tökür.
Fələk inamını tarıma çəkir,
Vuruşur həyatla, vuruşur mənsiz.

## BƏLKƏ GÖRÜŞMƏDİK...

Həyatım boşalıb, özüm dolmuşam,
Yar, bir bax üzümə, necə solmuşam...
Əllərim üzümdə susub qalmışam,
Bəlkə görüşmədik, bəlkə görüşdük...

Həsrət məskən salıb indi içimdə,
Fikirdən qalmayıb vallah, gücüm də.
Sevgim də getmədə hicran köçündə...
Bəlkə görüşmədik, bəlkə görüşdük...

Nə vaxtsa yolumuz üst-üstə düşər,
Gözlərim gözünlə bir də görüşər.
Bu kəlməm yellərə dönüb ötüşər -
Bəlkə görüşmədik, bəlkə görüşdük.

Düşürsən yadıma - əlində əlim...
Ayrılıq da zülüm, həsrət də zülüm!
Kim bilir, dünyanın işidir, gülüm,
Bəlkə görüşmədik, bəlkə görüşdük?..

## GEDİRƏM...

Elə dolmuşam ki, bu səhər yenə...
Bu soyuq yerlərdən doyub gedirəm.
Neyləyim ayrılır yolumuz, gülüm,
Səni bu ellərdə qoyub gedirəm.

Özümü boşluğa ata-ata mən,
Həsrətlə başımı qata-qata mən,
Canımı dişimə tuta-tuta mən
Zamansız eşqimə qıyıb gedirəm.

Necə də şirinmiş vüsalın dadı,
Unutdurdu mənə amalı, adı.
Bilirəm, günahım qollarındadı,
İndi günahımı yuyub gedirəm!..

kaspi.-2019.-30 mart.